**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXXXIII buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIII выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Arts, XXXXIII edition, Baku, 2023*

## TƏSVİRİ SƏNƏT

**UOT 73/76**
**DOI: 10.52094/1524122.43.2023.31**

**Namiq Zahid oğlu Məmmədov**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Dosent**

# KOMPOZİSİYA DƏZGAH RƏNGKARLIĞINDA

**Xülasə:** Kompozisiya haqqında ümumi məlumat veriləndə biz rəng haqqında məlumat, rəngkarlıqda kompozisiya, kompozisiyada rəng və gözəllik anlayışı, kompozisiyada tablonun ümumi rəng tonu, palitradakı məhdudiyyət, rəngin harmoniyası, kompozisiyanın dili, rəng və əşya haqqında araşdırmalarımızı aparmışıq.

Rəngkarlıq" dediyimiz zaman gözümüzün önündə rənglər dünyası canlanır. Rəngkarlıq rəssamlıq sənətinin ən maraqlı şöbələrindəndir. Bu sənətin həm tamamlayıcı olması, həm də təsir gücünün çox yüksək səviyyədə yer tutması rəngkarlıq sənətinin ətrafında olan maraq dairəsini artırır.

**Açar sözlər:** kompozisiya, rəng, obyekt, harmoniya

Müasir dövrümüzdə texniki tərəqqinin inkişaf etməsi, bərabərində bir çox rəngli foto effektlər meydana gətirməsi qətiyyən rənkarlıq sənətinə qarşı marağı soyutmadı, tam əksinə sənətkarın duyğu süzgəcindən keçirdiyi rənglər dünyası daha da çox dəyər qazanmaqdadır. (1,s.4) Rəngkarlıq sənəti çox şaxəli olduğundan hər səviyyədə tamaşaçı auditoriyasına malikdir. Rəssam rəngkarlığın hansı növünə üstünlük verirsə versin, əgər duyğularını və düşündüklərini rənglər vasitəsi ilə ifadə etməyə çalışırsa, o zaman rəssam rəngləri yaxşı bilməli və onlardan düzgün istifadə etməyi bacarmalıdır.

Dünya incəsənətində rəngkarlıq ən önəmli sahələrədən biridir. Təsviri sənətin aparıcı sahəsi olan rəngkarlığın bu qədər əhəmiyyətli olması ilk növbədə dünyada baş verən elmi və mədəni hadisələri, insan obrazlarını və təbiəti olduğu qədər canlı və bütövlüyünün qeyri-mümkünlüyü ilə əlaqəlidir. Həm də başqa yandan çevrələnmiş bəşəriyyətin - əhatələnənlərin hədsiz bütövlüyü ifadəsi dünyada baş verən hadisələrin

məzmununu, insanın mənəvi və siyasi həyatını, onun fikirlərini emosiyalarını və çalışqanlığını açmağa imkan verir.

Dünyada öz mövqeyinə görə fərqlənən rəngkarlıq sahəsi niyə reallığın görüntüsünün və bizim daxili duyğularımızı daha qabarıq bütövlüklə ifadəsini təsvir obyektinə çevirməyi bacarmışdır. Təsviri sənətin aparıcısı sahəsi sayılan rəngkarlıq digər sahələrdən fərqli cəhətlərindən biri olaraq reallığı olduğu kimi təsvir etmək bacarığına malik bir sənət sahəsidir.

Rəssamlıq əsərlərində boyalar həmişə vəhdət təşkil etməlidir. Yəni müxtəlif boyalarda vahid bir qamma üstün olmalıdır. Bu da əsərə kolorit verir. Kolorit dedikdə, əsərin məzmunundan asılı olaraq boyaların vəhdət və uyğunluğu nəzərdə tutulur.

Boyaların bir xüsusiyyəti də vardır ki, onlar işığın təsiri altında öz görünüşünü tez-tez dəyişir, başqa bir rəngə çala bilir. Həmçinin fəzad təşkil edən iki boyaya birbirinin yanında baxdıqda onlar öz xassələrini müəyyən qədər itirir. Bundan əlavə, gördüyümüz eyni əşya yaxın və uzaq məsafələrdə öz ilk rəngini mühafizə etmir. Bunun nəticəsində uzaqda görünən dağlar, dərələr mavi hava təbəqəsi ilə örtülür. Bütün bunlar göstərir ki, rəssam boyalarda həmişə müsbət axtarmalı və bu yolla gördüyümüz hər şeyin bədii rəng təsirini əldə etməlidir.

Plener etüdlərində işıqlandırma vəziyyətini öyrənmək üçün eyni motivə: həm tutqun havada, həm də günəşli havada, yayda və qışda da çalışmaq lazımdır. Sonra çalışılan etüdləri bir-biri ilə müqayisə etdiyimizdə rəngkarlıq xüsusiyyətlərinin əsasını fərqli şəkildə görə bilərik. Rəng münasibətlərinin rəngkarlıqdakı işləmə metodunu musiqi melodiyasının qurulması ilə müqayisə etmək olar. Hansı ki, ayrı-ayrı səslər özlüyündə heç bir şey ifadə etməz, ancaq bunların qarmonik birləşməsi istənilən təəssüratı verməkdədir.

Ümumiyyətlə rəng duyğusu, müəyyən işıq elegiyasının və ya işıq selinin bir səth üzərindən qayıdaraq gözümüzə düşməsi nəticəsində yaranır. Duyduğumuz rəngin növü həmin işıq selinin tərkibindən asılıdır. Qayıdan işıq selinin tərkibi isə iki şərtdən birincisi onu qaytaran cismin fiziki keyfiyyətindən və ikincisi, cismin üzərinə düşən işığın spektr tərkibindən asılıdır.Təcrübə göstərir ki, tərkib etibarı ilə birbirindən fərqli olan işıq selləri, bəzən gözə eyni rəngdə görünə bilər. Belə halların müşahidə edilməsi insan gözünün qurluşu və xüsusiyyəti ilə izah olunur.

Beləliklə rənglərin duymağın üç əsas səbəbi var:

1. Cismin şüanı qaytarma qabiliyyəti.
2. Cismi işıqlandıran mənbənin spektr tərkibi.
3. İnsan gözünün duyğu xüsusiyyəti.(1,s.8)

Rəng elminin tarixi çox qədimdir. Eramızdan bir neçə əsr əvvəl yaşayan qədim Yunan filosofları Demokrit və Aristoteldən başlayaraq alimlər əsas rəngləri, cismlərin rənglilik səbəblərini və bəzi rəng hadisələrinin əsaslarını izah etməyə çalışmışlar. İntibah dövrünün məşhur memarlarından Leon Battista Alberti üç ciliddən ibarət olan əsərində rəng barəsində bir çox qiymətli fikir söyləmişdir. XV əsrin ən böyük rəssamı və alimi Leonardo-da-Vinci rəng, işıq və kölgə haqqında yalnız XIX əsrdə fiziologiya elminə aydın olan bir çox şeyləri o zaman müşahidə etmişdir.

XVII əsrdə İssak Nyüton ilk dəfə olaraq ağ işığı müxtəlif şüalardan ibarət olan rəngli hissələrə ayırmış, əlvan rənglər dairəsini qurmuş, cisimlərin rəngliliyini izah etmiş və rənglərin qarışma üsullarını tətbiq etmişdir. XVIII əsr Fransız materiaisti Didro da rəngə dair maraqlı fikirlər söyləmişdir. Rus alimlərindən M.V.Lomonosov ilk dəfə olaraq müəyyən etmişdir ki, əsas rənglər üçdür. Sonralar rəng məsələləri ilə elmi nöqteyi-nəzərdən akademik P.Lazarev və başqaları məşğul olub rəng elminin nəzəri əsaslarını qoymuşlar. Sarı toz boyanı sink lövhəsi üzərində isitdikdə onun rəngi qırmızıya çevrilir ki, bu da sözsüz kimyəvi dəyişmənin nəticəsidir. Bir neçə müxtəlif və əlvan rəngin xoşahəngliyi şəraiti də rəng estetikasına aiddir ki, bu da fəlsəfə məsələləri ilə əlaqədardır. Nəhayət rəngləri ölçmək, onların fiziki sifətlərini ifadə etmək və verilən rəng düsturu və tənlikləri vastəsilə tələb olunan rəngi almaq üsulları da, riyaziyyatla əlaqadar olmasına baxmayaraq rəng elminə aiddir.(3)

Burada anlaşılır ki, rəng elmi çox müxtəlif olan rəng hadisələrini yalnız təsvir etmir, eyni zamanda onların səbəblərini izah edir və ayrı-ayrı faktları yekunlaştırıb nəzəri cəhətdən əsaslandırır. Bunlar isə rəssamın təbiətdə gördüyünü sərbəst təhlil etməsinə və dürüst anlamasına çox kömək edir. Böyük təcrübəyə malik olan rəssamlar və ya sənətkarlar əldə etdikləri müşahidə və təcrübələrini ümumiləşdirərək eyni qayda və qanunlar meydana çıxarırlar; məsələn, görkəmli rus rəssamı Repin “rəng rəngi doğurur”, Leonardo-da-Vinci isə “kölgə işıqdan və işıq kölgədə aydın görünür”, “Rəngkarlıq bu rənglərlə poeziyadır” və ya “yaşıl ilə qırmızı və sarı ilə göy, qarşılıqlı olaraq bir-birini gözəlləştirir” fikirlərini söyləmişdir.(4,5)

Anri Matiss “Rəngi ağıl yolu ilə aparacaq qədər qabiliyyətli olmaq lazımdır”, E.Delakrua “Rəngkarlıq bizim gördüyümüz poeziyadır. Rəngkarlıq elə bir bacarıqdır ki, əşyalardan o qədərini götürməlisən ki, nə qədəri tamaşaçıya göstərilməlidir”, B.Mikelanjelo “Rəngkarlıq qısqanc sevgilidir. O, insandan hər şey tələb edir”, S.Krımov “Rəngkarlıq gördüyümüz materialı ton və rənglərlə əks etdirəndir”, V.Serov “Rəng həyatın hər malekuluna bağlanmasıdır. Gözünüzün tozunu silin ki, lazımlı şeyi görə biləsiniz. Bütövlüyü götürün. Naturadan lazım olanı götürün, hər şeyi götürməyin” və s. rəngkarlıq haqqında dəyərli fikirlər söyləmişlər.

Kompozisiyanın tərifi Qərb dillərindən dilimizə keçən "kompozision" kəlməsi, gündəlik həyatımızda və ədəbiyyat, rəssamlıq, musiqi, memarlıq kimi bir çox sənət sahəsində istifadə edilir. "Rəng kompozisiyası", "Musiqi kompozisiyası", "Kompozisiya gözəlliyi", "Kompozə etmək" kimi deyilişlər, bu kəlimənin istifadə sahəsinin nə qədər geniş olduğunu göstərir. Kompozisiya, rəssamlıq, musiqi, heykəl, memarlıq, ədəbiyyat kimi dəyişik sahələrdə əsərin müəyyən bir nizam içərisində bir araya gətirilməsidir. Kompozisiyanı meydana gətirmək üçün lazımlı olan vəsaitlər, üzərində çalışılan sənət sahəsinə görə dəyişir. Rəsm sənətinin vəsaiti rənglər, musiqini yaradan səslər, memarlığın əsas vəsaiti daş, torpaq, mərmər; ədəbiyyatın vəsaiti isə dildir. Hər sənət sahəsinin, kompozisiyanı meydana gətirmə formasını və vasitəsini istifadə etmə şəkli bir-birindən fərqlidir. Ancaq onların hamısında ortaq olan təməl nöqtə, dəyişik və dağınıq vəsaitin duyğularımıza xoş gələcək, bizdə gözəllik və bəyənmə duyğuları oyandıracaq şəkildə bir araya gətirilməsidir.(4,5,6)

İnsan olaraq duyğularımızı, düşüncələrimizi, fikirlərimizi qarşımızdakılara izah etmək, özümüzdən danışmaq, ictimai problemləri dilə gətirmək mənəvi bir ehtiyacdır. Ətrafımızdakılarla əlaqə yaradar, onların problemlərini dinləyər ya da öz problemlərimizi onlara izah edərik. Bu əlaqələrlə düşüncələrimizi paylaşmış olarıq. Düşündüyünü və eşitdiyini qarşısındakılara müvəffəqiyyətlə izah edə bilmək hər normal insanın müvəffəqiyyətlə etməsi lazım olan və edə biləcəyi bir şeydir. Hər kəs düşündüyünü, hazırladığını qarşısındakına müvəffəqiyyət ilə izah edə bilər.

Ətrafınıza baxın; bəzi binalar nə qədər gözəl inşa edilmişdir - deyə düşünürük. Bəziləri isə insanın daxilini sıxar. Bu da bir inşadır. Memarlıq bir növ bina inşası deyilmi? İstifadə edilən vəsaitlər, ümumiyyətlə, eyni, amma meydana çıxan binalar fərqli-fərqlidir.

Hazırlana planın yaxşı tətbiq olunduğu, hazırlanan vəsaitin yaxşı yerləşdirildiyi bina gözəl, uyğun və rahatdır. O biri bina isə “çirkindir”. Çünki orada memarlıq yox; yığma, doldurma və uyğunsuzluq var. Bu nümunələrdən faydalanmanızı və yaxşı kompozisiya qurmaq üçün həvəslənmənizi çox istəyirəm. Bol-bol oxuyun və bol-bol yaradın. Yaratdıqlarınız xoşunuza gəlmirsə, məhv edib atın, amma əsla yaratmaqdan imtina etməyin. Unutmayın ki, yaratmaq yaradılaraq öyrənilər iş, vərdiş və səbirdir. Hər kəsdən bir şair, yazıçı, rəssam olmasını gözləyə bilmərik, amma hər kəs düşüncələrini müvəffəqiyyətlə izah edə bilər.

Kompozisyayada fərqli iki yanaşmanı bir-birinə fərqli uyğunsuzlaşmaya baxmayaraq, bunun sonrakı inkişaf meyarları arasındakı təsadlı keçidləri aradan qaldırması və sintez xətti üzrə davam etdiyinin şahidi oluruq. Müasir dövrdə bu keçid vasitəsi kompozisyada müxtəlif əsərlərin yaradılmasında ən önəmli şəkildə əks

olunmuşdur. Bu vasitədə biz kompozisyada plastik keçidlərin təzadlı şəkildə əksi məsələsinin şahidi oluruq.

Kompozisyada əsasən hər hansı təsvir formasının ümumi görünüşünü və yaxud həcminin kifayyət qədər məhdudlaştırlıması ilə mövcud və bilavastə təsvir qurluşuna xas olan ölçü xüsusyyətinə malikdir. Bu keyfiyyətlər rəssamın yaradıcılığında kompozisiyaların seçimi təsadüfi olmur. Bunlar əsasən əsərin formasını, əsrin ideyasını və məzmunun üzə çıxmasına kömək edən vasitədir. Burdan aydın olur ki, forma quruluşunun və əsərin ölçüsünün müəyyənləşdirilməsi kompozisiyanın ilkin quruluşlarından biridir.

Görkəmli rəssam M.Vrubel mifoloji poetik, rəmzi mənalı devrilmiş Demon (Şeytan) əsərini yaradarkən obrazın (şəkil 1) diqqət çəkən xüsusiyyətləti meydana çıxır. Bekə ki, əsərdə personaj Qafqaz dağlarının üstündə yerdə oturmuş. Demonun fiqurunu təsvir etmişdir. Kompozisyada böyük varlığın daxili hisləri ilə yanaşı, onun zaman və məkan üzərində olan hakimliyini rənglər və forma cəhətdən göstərə bilmişdi.



**1. M.Vrubel. “Demon”. 1890.**

Sovet incəsənətində “sərt üslub”un yaradıcısı kimi tanınan rəssamlarımızdan T.Salahovu misal çəkmək olar. Belə ki, onun “Bəstəkar Qara Qarayevin portreti” əsərində (şəkil 2) də üfüqi kompozisiyadan istifadə edilmişdir və görkəmli şəxsiyyətin iç dünyasında qərarlaşan yaradıcı nüansların tamaşaçı tərəfindən qabarıq duyulmasına nail olmuşdu. Obrazın tünd və neytral fonda təqdimatında müəllifin musiqiçinin

yaşantılarını qabarıq göstərmək niyyəti hiss olunandır. Musiqi qulaq vasitəsi ilə insan tərəfindən qəbul olunur (eşidilir) və kompozisiya elə qurulmuşdur ki, bəstəkarın qulağı əsas xəttlərin kəsişməsində (əsas oxun və üfüqi xəttin) qoyulmuşdur.



**2. T.Salahov. “Bəstəkar Q.Qarayevin portreti”. 1960.**

Rəssam Həsənağa Məmmədov təkrar-təkrar mənəvi-ruhi dəyərlərimizə bədii münasibət göstərməsi onun yaradıcılığı üçün səciyyəvi cəhətdir. Onun həmin dəyərlərlə tanışlığı heç də səthi olmamışdır. Belə ki, onların dərindən dərki rəssama bu çoxsaylı qaynaqların ilhamverici vəziyyətlərindən yaradıcılıqla istifadəyə şərait yaratmış, əsərlərin məna məzmunun tutumunun dolğunluğunu şərtləndirmişdir. Rəssamın “Muğam” tablosu da belə nümunələrdəndir. Musiqiçilərin təsvir manerası bizi xəyalən biraz da uzaqlara aparır. Bura rəssam konkret bir muğam oxuyan xanəndəni yox ümumi muğamın təbliğatçısı rolunda çıxış edən mili geyimli musiqiçiləri təsvir etmişdir. Əslində rəssamı portret cizgilərinin dəqiq ifadəsi o qədər də maraqlandırmayıb. Onun üçün önəmlisi artıq muğam aləminin qeyri adi halına düşdüyü hiss olunan xanəndənin, tar və kaman ifaçısının yaşantılarını bədiiləştirmək olub. Odur ki, ürəkaçan mavi fon qarşısında sözü səsə çevirməklə ətrafını ovsunlayan milli geyimli xanəndənin özünəqapalı görüntüsü tamaşaçı üçün tablonun dolğunluğunu duymaq üçün bir bədii açar rolunu oynayır.

«Muğam üçlüyü» azərbaycanlı rəssam Toğrul Nərimanbəyov geniş işlədiyi mövzudur (şəkil 3). Həmçinin, geyim kolleksiyalarında da qaval, tar və kamançadan ibarət bu üçlüyün əks olunduğu geyimlər nümayiş və təqdim olunmuşdur. Klassik musiqiyə dərin məhəbbəti olan Toğrul Nərimanbəyov Azərbaycan muğamlarının vurğunudur. Milli sərvətimiz olan muğamlara onun öz baxışı var: "Mən muğamı

dinləyəndə onun bütün rəng çalarlarını anlayıram, hətta görürəm. Ahəngindəki qəmli notlar mənə çox təsir edir. Mən muğam oxuya bilmirəm. Onda ağlamaq istəyirəm. Bəlkə də buna görə mən həmişə muğamı səs kimi yox, maddi mədəniyyət abidəsi kimi qəbul edirəm. Hərdən də Qərb musiqisi ilə, xüsusilə də Bethovenin simfoniyaları ilə muğam arasında nəsə bir bağlılıq duyuram".



**3. Toğrul Nərimanbəyov. “Muğam”. K.y.b.**

“Muğam”, “Musiqiçilər” adlı əsərini muğam sənətimizin təbliği, sənətkarın muğam sənətinin alt qatlarında gizlənən fəlsəfi mahiyyətinə dərindən bələdliyini bir daha duymuş oluruq. Kompozisiyada musiqiçilərin ifa zamanı müxtəlif pozalarda yerləşdirilməsi, xüsusi ilə xanəndənin keçirdiyi hissləri, tərkidünyalığının verilməsi, tablonun ekspressiv dinamikliyi tamaşaçını sanki muğam musiqisinin ecazkar ritmi altında kökləmiş olur. Dahi Rus rəssamı V.Serov isə tamamilə fərqli quruluş seçmişdir. Bu fərqliliyi onun görkəmli rus aktrisası M. Yermolovanın portretində (şəkil 4) görmək olar. Rəssam nöqteyi-nəzərdən portretin kompozisiyası üçün şaquli quru- luş seçməsi təsadüfi olmamışdır. Məhz bu baxımdan uzun illər ərzində öz sənətkarlığı ilə tamaşaçıların diqqətini portretdə_aktrisanın obrazının möhtəşəm yadda qalan baxım almasını şərtləndirmişdir.



**4. V.Serov. "Aktrisa M.Yermolovanın portreti". 1905.**

Rus mənzərə rəssamı İ.Levitanın və azərbaycanlı S.Bəhlulzadənin mənzərələrinin cəlbedici və təsirli alınmasında da uğurlu kompozisiya və qurluş seçiminin yadda qalan rolu olmuşdur. Bu zamanda mənalı və böyük ideyanı özündə əks etdirən sənət əsərini götürsək, bu əsərdə müəllif düşüncə tərzi ilə ölçü və quruluşu, obrazın dərki, təyinatı və istifadə edilmiş material ilə əlaqəli olduğunu görə bilərik.

Monumentalıq prinsipi rəngakarlıq əsərlərində ən aparıcı sahələrdən birini özündə əks etdirir. Bu xüsusiyyətləri biz təsvir obyektində əsasən kiçik detalardan imtina etməklən əldə etmiş oluruq. Bu tərzi özündə əks etdirən sənət əsərləri monumental əsərlər sırasına aid edilir. Rəssam təsviri sənətdə əsasən seçdiyi süjet xətti mənalı və formaya görə düzgün təsvir obyektini özündə əks etdirməlidir. Bu prinsiplər sənət əsərlərində əsas amillərdən birini özündə əks etdirir. Demək sənət əsrlərinin süjeti xətti ən vacib məqamlardan birini daşıyır. Rəssam əsasən təsvir obyektinə çevirdiyi fiqurların və əşyaların ön planda təsvirini göstərməklən əsərlərə monumental və təsürat xarakterli zövqü danılmazdır. Rəssam həyatda baş verən hadisələri və ya təsadüf nəticəsində rast gəldiyi səhnələr kompozisyanın daha mənalı alındığının şahidi oluruq. Bu tərzi özündə əks etdirən kompozisiyalar adətən real həyatda çox sürətlən dəyişən anlardan birini əks etdirmiş olur.



**5. E.Deqa. "Balet məktəbində". 1874.**

Fransız rəssamı E. Deqa bü tərzi özündə əks etdirən kompozisiya əsərlərində böyük sənətkarlıq göstərə bilmişdir. O, əsasən şəhərlərin gündəlik həyatını, musiqi sənətkarlarını, balerinaları, paltar yuyan qadınıarı, kafenin adi müştərilərini təsvir edərək özünə məxsus texnikadan istifadə edərdi. Belə ki, fiqurlardan ibarət kompozisiya qurarkən kətanın kənarına çərçivəyə yaxın hissələrə çəkərdi. Yerdə qalan boş hissələri interyer təsviri və yaxud mənzərə ilə doldurardı ilk baxışda bu münasibət əsərdə kompozisiya pozulması kimi görünsə də, özünəməxsus harmoniyaya malik idi. İlk baxışdan kompozisiyanın təsadüfən birləşdirilmiş hissələrdən ibarət olduğu görülürdü. Lakin mənzərə və ya mənzərənin böşluqları doldurması əsərə xüsusi təsir gücü bəxş edirdi.

Təsvir obyektlərində kompozisiyanın təsvir edilən obraz və ya əşyaların tarazlığı onun fiziki prinsiplərinin gözlə görülmədən əlavə hiss ediləcək dərəcədə fərqlənir. İlk növbədə sənət əsəri statik olan donuq, hərəkətsizlik yaradan tam simmetriyanı qəbul etmir.  Bu prinsipi özündə əks etdirən tarazlıq mənalı tamaşaçı baxışının tablonun və ya formanın ayrı-ayrı hissələrində yox, bütün hissələrində onu düşüncələr aləminə aparan estetik qaynaqlarla rastlanmasına səbəb olur. Bu mütənasib tarazlığın əldə olunmasına çatan rəssam əsrin daxili məkandan həm diqqət çəkə bilən və həm də tamaşaçı baxışına rahatlıq verə biləcək mərkəzləri yerləşdirir. Bu da əsərlərin cəlbedici və bədii xüsusiyyətlərinin təmin etmiş olur. Rəngkarlığın hissiyyat tərəfi heç bir zaman ölməyəcəkdir. Ona görə insanlığa hər zaman rəngkarlıq lazımdır.

## Ədəbiyyat siyahısı:

1.Namiq Məmmədov Dəzgah rəngkarlığında kompozisiya.Baki: 2022,- 112 s 2. Н.Н.Волков «Цвет и живописи» Москва «Искусство», 1985.
3. Глеб Борисович Смирнов. «Живопись». .

4. Д.И.Киплинг. «Техника живописи». Москва, .
5. А.А.Унковский. «Живопись Вопросы колорита». Москва, .
6. Андроникова М. Об искусстве портрета. М: Искусство, 1975, 325 с.
7.Габибов Н. Искусство Советского Азербайджана - М.: Советский художник, 1960.
8. Супрун. Л. Новая встреча с искусством // газ. «Баку». 1969. 2 сентября, с. 4.

**Намик Захид оглу Мамедов**

## КОМПОЗИЦИЯ В МОЛЬКОВОЙ ЖИВОПИСИ

**Резюме:** В общих сведениях о композиции мы представляем сведения о цвете, композиции в живописи, понятии цвета и красоты в композиции, общем цветовом тоне картины в композиции, ограниченности палитры, гармонии цвета, языке композиции, цвете и предмете.

Когда мы говорим «живопись», мир красок оживает перед нашими глазами. Живопись – одна из самых интересных отраслей искусства. Тот факт, что это искусство является одновременно взаимодополняющим и очень влиятельным, увеличивает интерес к искусству живописи. Эмоциональная сторона живописи никогда не умрет. Вот почему человечеству всегда нужна живопись. **Ключевые слова:** композиция, цвет, предмет, гармония.

**Namiq Zahid oglu Mammadov**

## COMPOSITION IN EASEL PAINTING

**Summary:** In general information about composition, we present information about color, composition in painting, concept of color and beauty in composition, general color tone of a painting in composition, limitation in palette, harmony of color, language of composition, color and object.

When we say "painting", the world of colors comes to life in front of our eyes. Painting is one of the most interesting branches of art. The fact that this art is both complementary and highly influential increases the interest surrounding the art of

painting. The emotional side of painting will never die. That's why humanity always needs painting.

**Key words:** composition, color, object, harmony

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09. 09. 2023**